# MARAQLI TƏDQİQAT

**Hacı Bayram**

*Ölkəmiz müstəqillik əldə etdikdən sonra həyatın bütün sahələrində yeniliklər baş vermişdir. Son dövrlərdə Azərbaycan tarixinin geniş, hərtərəfli və obyektiv öyrənilməsinə maraq göstərilməsi bu baxımdan olduqca vacib və əhəmiyyətlidir.*

Hər bir şəxs dünyaya göz açdığı, böyüyüb təhsil aldığı və yaşadığı yerin tarixini bilməyə mənəvi cəhətdən borcludur. Ancaq ayrı-ayrı bölgələrin tarixinin geniş planda tədqiqi, öyrənilməsi tarixçilərin ixtisaslarından irəli gələn vəzifələrdir.

Elmi işlə məşğul olmaq çətin, məsuliyyətli və şərəflidir. Lənkəran Dövlət Universitetinin məzunu, Lerik rayonundakı Çayrud kənd orta məktəbinin tarix müəllimi Samir Kərimov belə bir məsuliyyəti dərk etmiş, çətinlikdən qorxmayaraq, səbr, təmkin və işgüzarlıqla «Lerik rayonunun arxeoloji abidələri» adlı kitabını ərsəyə gətirmişdir. Gənc tədqiqatçı indiyə qədər bu bölgə haqqında qələmə alınmış əsərləri və digər fundamental tədqiqatları dərindən mütaliə etmiş, qələmə aldığı mövzu ilə əlaqədar onlardan faydalanmış, lazım gələndə irəli sürdüyü ideyalarla bağlı əvvəllər aparılmış tədqiqatlara münasibət bildirmişdir.




«Lerik rayonunun arxeoloji abidələri» kitabı «Giriş», dörd fəsil və «Nəticə»dən ibarətdir. Müəllif həm də yekun xülasələri rus və ingilis dillərində «Annotasiya» şəklində vermişdir. Kitabın sonunda istifadə olunmuş ədəbiyyatın siyahısı, ixtisarlar, tədqiq olunan mövzulara aid şəkil və illüstrasiyalar yerləşdirilmişdir.

Əsərin ilk fəsli «Daş dövrü abidələri» adlanır. Tədqiqatçı S.Kərimov göstərir ki, ötən əsrin 80-ci illərinə qədər Lerik rayonu ərazisində daş dövrü abidələrinin olması elmə məlum deyildi. 1985-ci ilin iyul-avqust aylarında Azərbaycan Elmlər Akademiyasının Paleolit arxeoloji ekspedisiyası Lənkəran, Astara, Lerik və Masallı rayonlarının ərazisində arxeoloji kəşfiyyat işləri aparmış və ümidverici nəticə Lerik rayonunun Büzeyir mağarasında əldə olunmuşdur. Qazıntılar zamanı Büzeyir mağarasında 5 arxeoloji təbəqə müəyyənləşdirilmiş və daş dövrünə aid əmək alətləri tapılmışdır. Alimlər mağaranın tədqiqindən belə qənaətə gəlmişlər ki, Talış dağları üçüncü geoloji dövrdə vulkanik-çökmə suxurlarından əmələ gəlmişdir. İlk tədqiqindən 5 il sonra, yəni 1990-cı ilin iyul-avqust aylarında yenidən Büzeyir mağarasında qazıntı işləri aparılmış, bu dəfə müxtəlif dövrlərə aid 6 təbəqə qeydə alınmış, ümumilikdə 61 daş məmulatı əldə olunmuşdur. Müəllif göstərir ki, əgər indiyə kimi bu ərazidə insanların yaşaması 10-15 min il əvvələ aid edilirdisə, yeni tapıntılar paleolit dövr adamlarının hələ 80-90 min il bundan qabaq burada ömür sürməsini sübut edir.

Tədqiqatda o da qeyd olunur ki, XIX əsrin sonlarında Talış bölgəsində qazıntılar aparmış fransız alimi Jak de Morqanın bu ərazidə daş dövrünə aid abidələrin olmadığına dair irəli sürdüyü mülahizələrin yanlışlığı son dövrlər aparılmış tədqiqatların nəticəsində üzə çıxır.

Bu fəsildə Lerik rayonunda olan Zuvand mağaralarından da söhbət açılır. Bu mağaralar Lerik-Zuvand şosse yolunun sol sahilində, Zuvandçayın yatağından 50-55 metr hündürlükdə yerləşir. Mağaralarda ilkin kəşfiyyat aparılsa da, geniş şəkildə tədqiq olunmamışdır. Müəllif fəslin sonunda bölgənin paleolit abidələrinin öyrənilməsinin ilkin mərhələdə olduğu qənaətinə gəlir. Onu da qeyd etməyi lazım bilirik ki, bu ərazidə diqqəti cəlb edən iri mağaralar tam siyahıya alınmamışdır və bunların elmi baxımdan öyrənilməsi vacibdir. Məsələn, Büzeyir mağarasından təxminən 7-8 km uzaqda, Həzovi kəndinin şimal-şərqində sıldırım qayalar arasında yerləşən Kəmolikoç mağarası böyüklüyünə görə diqqəti cəlb edəndir. Ümid edirik ki, qarşıdakı tədqiqatlar zamanı arxeoloqlar buraya baxış keçirəcəklər.

Kitabın II fəslində «Son tunc və erkən dəmir dövr abidələri»ndən söhbət açılır. Lerik rayonu ərazisində son tunc və ilk dəmir dövrünə aid yarımköçəri maldarlıq təsərrüfatının əlamətlərini özündə əks etdirən çoxlu abidələr qeydə alınmış və tədqiqata cəlb olunmuşdur. Müəllif rayonun Keraveladi, Hovil, Hamarat, Veri, Coni, Tülü, Rəzgov, Mistan, Orand, Mastayıl, Cəngəmiran, Çayrud, Mondigah,

Büzeyir və s. kəndlərində qeydə alınan son tunc və erkən dəmir dövr abidələrini üç qrupa ayırır: 1. Daş qutu qəbirstanlıqları; 2. Kurqanlar; 3.Dolmenlər.

Daş qutu qəbirləri ilk dəfə 1890-cı ildə Jak de Morqan tərəfindən aşkarlanmışdır. Son dövrlərdə F.Mahmudov, A.Ələkbərov və başqaları Mondigah, Çayrud və digər qəbirstanlıqlarda arxeoloji qazıntılar aparmışdır. Tədqiqatda İ.Kərimov J. de Morqan tərəfindən Keraveladi qəbirstanlığında aşkarlanmış dolmenvari sərdabələrdən geniş bəhs edir və göstərir ki, burada qəbirlərin birindən boz əqiq möhür tapılmışdır. Möhürün üstündə-boz zebu-adlanan hind donqar öküzünün şəkli qazılmışdır. Bu qiymətli tapıntı Talış Muğan mədəniyyətinin Hindistanla təsərrüfat əlaqələrindən xəbər verir. Çox güman ki, hind donqar öküzü sonralar Talışda əhliləşdirilmiş, gidək (zebu) adı ilə bölgənin heyvandarlıq təsərrüfatının əsasını təşkil etmişdir.

Qazıntılar zamanı daş qutu qəbirlərində bir neçə (2-4 və daha artıq) ölünün basdırıldığı məlum olmuşdur. Kitab müəllifi Veri, Coni, Tülü, Hamarat, Hovil, Hiveri və digər qəbirstanlıqlarda aparılmış tədqiqatlar barədə oxuculara hərtərəfli məlumat verməyə çalışmışdır.

1999-cu ilin avqust ayında AMEA-nın müxbir üzvü, professor İ.Nərimanovun rəhbərliyi altında Büzeyir mağarasında aparılan arxeoloji qazıntılar bir çox maraqlı faktları üzə çıxarmışdır. Ailə və ya nəslə mənsub uzunluğu 2-4 metr, eni 1,2 metr olan bu daş qutu tipli qəbirlər sərdabə xarakteri daşımışdır. Eyni qəbirdə dəfn edilən 20 cəsədin skeletlərinin tədqiqi göstərmişdir ki, insanların bir qismi döyüşdə həlak olmuşlar. Çünki bir insan kəlləsinin içərisində tunç ox ucu tapılmışdır. Elmi araşdırmalar mütəxəssisləri belə bir nəticəyə gətirmişdir ki, daş qutu qəbirlərinin bir qismi e. ə. XIV-XIII (I mərhələ), digər bir qismi isə e. ə. XII-VII (II mərhələ) əsrlərə aiddir.

Lerik rayonunun son tunc və erkən dəmir dövr abidələri arasında kurqanlar da mühüm yer tutur. Bu barədə də ilk tədqiqat fransız alimi Jak de Morqana məxsusdur. O, Keraveladi, Hovil, Hamarat, Veri, Coni, Rəzgov və s. kəndlərdə kurqanların olduğunu qeyd etmişdir. Gənc tədqiqatçı da öz əsərində bu məsələyə xüsusi diqqət yetirmiş, Çayrud, Piəküjə, Andurma kəndlərinin kurqanları barədə daha ətraflı məlumat vermişdir.

Müəllif göstərir ki, Azərbaycanda yalnız Lerik və Yardımlı rayonlarının ərazilərində dolmenlərə təsadüf olunmuşdur. Yerli əhali bu tip abidələrə ecazkar qüvvə kimi baxmış və onları ziyarətgaha çevirmişlər. Tədqiqatçı bu barədə fikirlərinin izahında İ.Əzimbəyovun apardığı elmi araşdırmalara əsaslanır. Kitabın bu fəslində arxeoloji materialların təsnifatına da geniş yer ayırmışdır.

Lerik rayonunun antik dövr abidələri barədə kitabın III fəslində bəhs olunur və müəllif onları iki qrupa bölür:

1. Yaşayış yerləri; 2. Qəbir abidələri.

Ərazidə antik dövr yaşayış yerləri və onlarla həmdövr olan nekropollar bir-birindən çox da uzaqda yerləşmir. Rayonda antik dövr yaşayış yerləri geniş şəkildə tədqiq edilmədiyindən, müəllif onlar barədə ümumiləşdirilmiş halda məlumatlar verməyə çalışmışdır. Yaşayış yerlərinin qalıqları təpə formasında dağların maili döşündə qalmışdır. Təsərrüfat fəaliyyəti nəticəsində abidələrin bəziləri dağıntıya məruz qalmış və mədəni təbəqə zədələnmişdir. Əsərdə Şəğolakan, Cındırtəpə, Zövnə, Kürdəsər, Çolaküjə, İmam yaşayış yerlərinin antik dövr xüsusiyyətləri və tarixi haqqında mülahizələr öz əksini tapmışdır.













Rayonun orta əsr abidələrinə aid məlumatlar kitabın son fəslində verilmişdir. Həmin dövr abidələrini tədqiqatçı aşağıdakı kimi qruplaşdırmışdır:

1.Qalalar; 2.Kənd tipli yaşayış yerləri; 3.Dini tarixi abidələr; 4.Daş qoç heykəlləri.

Orta əsr abidələri içərisində yüksək dağ silsilələrində inşa edilmiş qalalar tarixi möhtəşəmliyi və əzəməti ilə diqqəti daha çox cəlb edirlər. Bu baxımdan hələlik rayon ərazisində qeydə alınmış Qız, Oğlan, Büzeyir, Digah və Nudüz qalaları barədə əsərdə yığcam söhbət açılmışdır. Azərbaycanın bir çox bölgələrində Qız qalaları mövcuddur. Lerikdəki Qız qalası da özünəməxsusluğu və möhtəşəmliyi ilə seçilir. Qalaya belə bir adın verilməsi əzəmət, gözəllik, bakirəlik və alınmazlıq simvolu xarakteri daşıyır. Qala dəniz səviyyəsindən 2000 m, ətraf ərazidən isə 130-150 m hündürlükdə yerləşir. Vaxtilə müdafiə məqsədilə inşa edilmiş bu tarixi abidənin IX-XI əsrlərdə tikilməsi ehtimal olunur.

Müəllif kitabda kənd tipli qədim yaşayış məskənləri olan Lilidiqo, Kanadi, Kamilikəqo, Tıbəbın və s. barədə də ətraflı məlumat verməyə çalışmışdır.

Tarixin bütün dövrlərində ulu Tanrıya pənah aparan insanlar yaşadıqları ərazilərdə türbələr, ocaqlar, ziyarətgahlar yapmaqla inanclarını möhkəmləndirməyə səy göstərmişlər. Tarixdən məlumdur ki, Ərəb xilafətində Əməvilərin və Abbasilərin hakimiyyəti illərində Məhəmməd (s) peyğəmbərin qızı Fatimə (ə)Nin və birinci imam Həzrət Əlinin qovuşuğundan əmələ gələnlərə qarşı (seyidlərə) qəddarlıqla (Kərbəla vaqiəsi və sonrakı hadisələr) mübarizə aparmışdır. Ulu, pak nəsildən olanların bir çoxu İrana, Azərbaycana köçmək məcburiyyətində qalmışlar. Peyğəmbər nəslindən olanları və onların canişinlərini imanlı şəxslər hər yerdə hörmətlə qarşılamışlar. Tarixboyu seyidlərə və digər övladlara Lerik rayonu ərazisində də həmişə ehtiram göstərilmiş, dünyadan köçən rəhbərlərinin qəbirləri ziyarətgaha çevrilmişdir. Bu baxımdan Lerik ərazisində Hüseyn Ata, Yaşıl Baba, Xoca Seyid, Babagil, Cabir Ənsari, Baba İsa, Seyid Əbülqasım, Fəxrigiz, Bəhri Biya və digər türbələr diqqəti cəlb etmiş və onlar barədə məlumatlar verilmişdir.

Fikrimizcə, kitabda dini-tarixi abidələrin hamısı əhatə olunmamışdır. Məsələn, Rvarud kəndində yerləşən Seyid Cahangir ocağı, Seyid Paşa ocağı, Anzolu və Həzovi kəndləri arasında Vənibərə qəbirstanlığındakı Mir Şükürüllah ocağı kimi dini-tarixi abidələr barədə əsərdə heç bir məlumat yoxdur.

Lerik rayonunun orta əsr abidələri arasında daş qoç heykəlləri xüsusi əhəmiyyət kəsb edir. Vaxtilə bir neçə kənd qəbirstanlıqlarında mövcud olmuş bu qəbirüstü abidələrin çoxu son dövrlərdə laqeydlik üzündən yoxa çıxmışdır. Müəllif qeyd edir ki, rayonun daş qoç heykəlləri fərdi-bədii üslub xüsusiyyətlərinə malikdir. Həcmin böyüklüyü, buynuzların qabarıq hazırlanması heykəllərə xüsusi gözəllik vermiş, uzaq məsafədən əzəmətli görünməsinə səbəb olmuşdur. Daş qoç heykəlləri XV-XVII əsrlərə aid edilir.

Gənc tədqiqatçı Samir Kərimovun «Lerik rayonunun arxeoloji abidələri» kitabı bütövlükdə olduqca qiymətlidir. İnanırıq ki, müəllif tədqiqatlarını davam etdirəcək, yazacağı yeni əsərləri ilə oxucuları sevindirəcəkdir. Kitabın nəşrinə maddi yardım göstərmiş Ehtiram Miriyev də vəsaitini elmin təbliği yoluna sərf etdiyinə görə qadir Allah qarşısında savab sahibi olmuşdur. Ona da işlərində uğurlar arzulayırıq.